**"DÖVLƏT QEYDİYYATINA ALINMIŞDIR"**

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin 10 saylı Ərazi Vergilər İdarəsi tərəfindən

Qeydiyyat № 5400378291

"30" Mart 2023-ci il

E.Süleymanlı

**"TƏSDİQ EDİLMİŞDİR"**

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin

30 01 2023-cü il tarixli

3-29/3-2-30 F/2023 nömrəli əmri

E.Əmrullayev

Azərbaycan Respublikasının elm və təhsil naziri

# "İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzi" publik hüquqi şəxsin

# NİZAMNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. "İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzi" publik hüquqi şəxs (bundan sonra – Mərkəz) ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olub, Azərbaycan Respublikasının "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarına uyğun olaraq müvafiq səviyyələr üzrə peşə təhsili, habelə tam orta və əlavə təhsil proqramlarını həyata keçirən peşə təhsili müəssisəsidir.

1.2. Mərkəz İsmayıllı Peşə Tədris Mərkəzinin çevrilmə yolu ilə yenidən təşkil edilməsi nəticəsində yaradılmışdır və həmin təhsil müəssisəsinin hüquqi varisidir.

1.3. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Mülki Məcəlləsini, Azərbaycan Respublikasının "Publik hüquqi şəxslər haqqında", "Təhsil haqqında", "Peşə təhsili haqqında" qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin digər qərar və sərəncamlarını, habelə Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin (bundan sonra – Nazirlik), Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin (bundan sonra - Agentlik) əmr və sərəncamlarını və bu Nizamnaməni rəhbər tutur.

1.4. Mərkəzin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, bank hesabı, üzərində Nazirliyin adı, həmçinin öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Mərkəz "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs statusu əldə edir. Peşə təhsili müəssisəsinin hüquq qabiliyyətinə onun ləğvinin başa çatdığı an xitam verilir.

1.6. Mərkəz öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən, dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.7. Qanuna uyğun olaraq, Mərkəzin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Mərkəz məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.8. Mərkəz Azərbaycan Respublikasının "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarına uyğun olaraq akkreditasiya edilir.

1.9. Mərkəzdə siyasi partiyaların və dini qurumların strukturlarının yaradılmasına və fəaliyyətinə yol verilmir.

1.10. Mərkəz İsmayıllı şəhəri, Ə.Ələkbərzadə küçəsi 34 ünvanında yerləşir.

## 2. Mərkəzin fəaliyyətinin istiqamətləri

Mərkəzin fəaliyyət istiqaməti ilk, texniki və yüksək texniki peşə təhsili səviyyələrində nəzəri, metodiki və praktiki hazırlığın təşkili, habelə tam orta təhsil səviyyəsində təhsilin və əlavə təhsil proqramlarının həyata keçirilməsindən ibarətdir.

## 3. Mərkəzin vəzifələri və hüquqları

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Mərkəzin vəzifələri aşağıdakılardır:

3.1.1. peşə təhsili sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;

3.1.2. dövlət təhsil standartlarına uyğun olaraq, təhsilalanların zəruri bilik və bacarıqlara yiyələnməsini təmin etmək;

3.1.3. əmək bazarının tələblərinə uyğun ixtisaslı kadrlar hazırlamaq, hər bir təhsilalanın intellektual, mədəni və mənəvi inkişafı, təhsilalma tələblərini ödəmək;

3.1.4. təlim-tərbiyə prosesini yüksək səviyyədə təşkil etmək, və onun monitorinqini həyata keçirmək;

3.1.5. təlim-tərbiyə prosesində innovativ texnologiyalardan və yeni təlim üsullarından istifadə etmək, habelə təhsilalanları dərsliklərlə pulsuz təmin etmək;;

3.1.6. profilinə uyğun olaraq, nəzəri-metodoloji və pedaqoji-metodiki sənədlər hazırlamaq;

3.1.7. maraqlı tərəflərin nümayəndələrinin (işəgötürənlər, mütəxəssislər, təhsilalanlar, təhsilverənlər) iştirakı ilə nümunəvi təhsil proqramları (kurikulumlar) əsasında işçi təhsil proqramları (kurikulumlar) hazırlamaq;

3.1.8. sağlamlıq imkanları məhdud olan şəxslərin inklüziv təhsilini təşkil etmək;

3.1.9. mühəndis-pedaqoji heyətin ixtisasının artırılması və heyətin yenidənhazırlanma prosesinə cəlb olunması üçün müvafiq tədbirlər görmək;

3.1.10. təhsilalanların istehsalat avadanlıqları, alətləri və qurğuları ilə ehtiyatlı davranmalarını, materiallardan, elektrik enerjisindən qənaətlə istifadə etmələrini, istehsalat işlərini keyfiyyətlə və vaxtında yerinə yetirmələrini, eləcə də texniki təhlükəsizlik və daxili qaydalara riayət etmələrini təmin etmək;

3.1.11. peşə təhsili müəssisəsində mühəndis-pedaqoji işçilərin və təhsilalanların təhlükəsizliyini təmin edən tədbirlərin yerinə yetirilməsinə nəzarət etmək;

3.1.12. peşə təhsili üzrə məlumat bazasının formalaşdırılması üzrə Nazirliyin müəyyən etdiyi məlumatları təqdim etmək;

3.1.13. peşə təhsili müəssisəsinin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.14. Nazirliyin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nə və "Şagird-məzun" dövlət elektron məlumat sisteminə qoşulmaq;

3.1.15. Mərkəzin strukturunun təkmilləşdirilməsi ilə bağlı Agentliyə təkliflər vermək və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.16. qanunvericilikdə nəzərdə tutulan hallarda və qaydada hüquqmüəyyənedici sənədlər vermək, müvafiq məsələlərə münasibət bildirmək;

3.1.17. Azərbaycan Respublikasının "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarına uyğun olaraq, iaşə, tibbi və psixoloji xidmətləri təşkil etmək və "Psixoloji yardım haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilməklə, psixoloji yardım göstərmək;

3.1.18. maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi və genişləndirilməsi istiqamətində işlər görmək;

3.1.19. hər bir təhsilalanın, valideynin və ya digər qanuni nümayəndənin Mərkəzin nizamnaməsi, lisenziya və dövlət akkreditasiyası haqqında sənədlə tanış olmasına şərait yaratmaq;

3.1.20. təhsilalanların sağlamlığının qorunmasında bilavasitə iştirak etmək, onları fiziki və psixi zorakılığın bütün formalarından qorumaq və zərərli vərdişlərdən çəkindirmək;

3.1.21. müəssisə və təşkilatlarda istehsalat təlimi və təcrübəsi keçənlərlə Mərkəzin iştirakı ilə üçtərəfli qaydada iş yerində təcrübə müqaviləsinin bağlanılmasını təmin etmək;

3.1.22. təhsilalanlara karyera və məsləhət xidmətinin göstərilməsində yardım etmək və

bu sahədə işəgötürən müəssisə və təşkilatlarla əməkdaşlıq etmək;

3.1.23. Mərkəzin ayrılan büdcə vəsaitindən, kredit, qrant, ianə və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.24. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təhsil haqqında dövlət sənədi, habelə müvafiq arayış vermək;

3.1.25. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək;

3.1.26. Mərkəzin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə Azərbaycan Respublikasının "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.27. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı inzibati xəta və cinayət əlamətləri aşkar etdikdə, aidiyyəti üzrə məlumat vermək;

3.1.28. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.29. Azərbaycan Respublikasının "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarından irəli gələn, habelə bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Mərkəzin aşağıdakı hüquqları vardır:

3.2.1. peşə və ixtisaslara uyğun dərslik, dərs vəsaiti, tədris və tədris-metodik ədəbiyyat hazırlamaq və nəşr etmək;

3.2.2. xarici dövlətlərin peşə təhsili müəssisələri ilə bağlanılmış ikitərəfli və çoxtərəfli müqavilələrə uyğun olaraq, beynəlxalq təhsil proqramlarını həyata keçirmək;

3.2.3. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa və bu Nizamnaməyə uyğun olaraq, Azərbaycan Respublikasının və xarici dövlətlərin ərazisində filiallar (Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla), idarə və nümayəndəliklər açmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək, habelə təhsilin inkişafı və təkmilləşdirilməsi məqsədi ilə ictimai təşkilatlarla təhsil birlikləri, assosiasiyaları və ittifaqları yaratmaq, eləcə də bu kimi təşkilatlara üzv olmaq;

3.2.4. "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa və özünün fəaliyyət xüsusiyyətlərinə uyğun olaraq, xarici ölkələrin peşə təhsili müəssisələri, təşkilatları ilə, beynəlxalq qurumlarla və fondlarla əlaqələr yaratmaq, əməkdaşlıq haqqında müqavilələr bağlamaq və qarşılıqlı əməkdaşlığın digər formalarını həyata keçirmək;

3.2.5. Azərbaycan Respublikasının "Peşə təhsili haqqında" və "Publik hüquqi şəxslər haqqında" qanunları ilə müəyyən edilmiş qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;

3.2.6. təhsilalanlar və əməkdaşlar üçün idman, sağlamlıq və məişət xidmətləri təşkil etmək və göstərmək;

3.2.7. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qrupları və komissiyalar yaratmaq;

3.2.8. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

3.2.9. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.10. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.11. dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.12. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.13. Azərbaycan Respublikasının "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarından irəli gələn, habelə bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

3.3. Mərkəzdə təhsil dövlət hesabına və (və ya) ödənişli əsaslarla həyata keçirilir.

3.4. Peşə təhsili proqramlarına və onların həyata keçirilməsinə qoyulan ümumi tələblər Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən peşə təhsilinin dövlət standartları ilə müəyyənləşdirilir.

3.5. Mərkəzdə tədris peşə təhsili pilləsi üzrə təhsilin məzmununu və mənimsənilməsi qaydalarını müəyyən edən və Nazirlik tərəfindən təsdiq edilən təhsil proqramları əsasında həyata keçirilir.

3.6. Mərkəzdə təlim-tərbiyə prosesinin təşkili ilə bağlı digər məsələlər Azərbaycan Respublikasının "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarına, həmçinin həmin qanunlardan irəli gələrək Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Nazirliyin müəyyən etdiyi qaydalara uyğun olaraq həyata keçirilir.

## 4. Mərkəzin idarə olunması

4.1. Mərkəz aşkarlıq, şəffaflıq və demokratiklik prinsipləri əsas tutulmaqla, Azərbaycan Respublikasının "Təhsil haqqında", "Publik hüquqi şəxslər haqqında" və "Peşə təhsili haqqında" qanunlarına və bu Nizamnaməyə uyğun olaraq idarə edilir.

4.2. Mərkəzin təsisçisinin səlahiyyətləri aşağıdakılardır:

4.2.1. Mərkəzin nizamnaməsinin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.2.2. idarəetmə orqanlarının yaradılması;

4.2.3. idarəetmə orqanlarının rəhbərlərinin (üzvlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.2.4. inkişaf istiqamətlərinin müəyyən edilməsi, illik maliyyə hesabatlarının təsdiqi;

4.2.5. Mərkəzin strukturunun təsdiqi;

4.2.6. təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, idarə, filial və nümayəndəliklərin yaradılmasına razılıq verilməsi;

4.2.7. xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), habelə publik hüquqi şəxsə aidiyyəti olan şəxslərlə əqdin (əqdin dəyəri aktivlərin 5 faizini və daha çox hissəsini təşkil etdikdə) bağlanılmasına razılıq verilməsi;

4.2.8. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;

4.2.9. Mərkəzin yenidən təşkil və ləğv edilməsi.

4.3. Təsisçinin bu Nizamnamənin 4.2.1-ci, 4.2.2-ci, 4.2.3-cü, 4.2.6-cı, 4.2.8-ci və 4.2.9-cu yarımbəndlərində qeyd olunan səlahiyyətlərini Nazirlik həyata keçirir.

4.4. Təsisçinin digər səlahiyyətlərini (4.2.1-ci, 4.2.2-ci, 4.2.3-cü, 4.2.6-cı, 4.2.8-ci və

4.2.9-cu yarımbəndlərdə nəzərdə tutulmuş səlahiyyətlər istisna olmaqla) Agentlik həyata keçirir.

4.5. Bu Nizamnamədə dəyişikliklər Mərkəzin Pedaqoji Şurasında müzakirə edilir və Agentliklə razılaşdırılmaqla bu Nizamnamənin 4.2.1-ci yarımbəndi ilə müəyyən edilmiş qaydada təsdiq olunması üçün aidiyyəti üzrə təqdim edilir.

4.6. Mərkəzin ali idarəetmə orqanı ictimai əsaslarla fəaliyyət göstərən Pedaqoji Şuradır. Pedaqoji Şuranın yaradılması, səlahiyyətləri və fəaliyyətinin təşkili qaydası Nazirliyin təsdiq etdiyi müvafiq əsasnamə və bu Nizamnamə ilə müəyyən olunur.

4.7. Mərkəzin strateji inkişaf məsələləri üzrə idarəetmə orqanı ictimai əsaslarla fəaliyyət göstərən Himayəçilər Şurasıdır. Himayəçilər Şurasının (bundan sonra - Şura) tərkibinə Mərkəzin fəaliyyətinin təkmilləşdirilməsi və inkişafında maraqlı olan dövlət orqanlarının (qurumlarının), işəgötürənlərin birlik və təşkilatlarının, ayrı-ayrı işəgötürənlərin nümayəndələri daxil edilə bilər. Şura azı 7 (yeddi) nəfərdən ibarətdir və Şuranın sədrini və tərkibini Azərbaycan Respublikasının elm və təhsil naziri təsdiq edir.

4.8. Mərkəzin Himayəçilər Şurasının fəaliyyət istiqamətləri aşağıdakılardır:

4.8.1. Mərkəzin strateji inkişaf istiqamətlərinin müəyyən edilməsi;

4.8.2. Mərkəzin dövlət-özəl sahənin tərəfdaşlığına əsaslanan müəssisə kimi inkişaf fəaliyyətlərinin formalaşdırılması;

4.8.3. Mərkəzin beynəlxalq əlaqələrinin möhkəmləndirilməsi, beynəlxalq təşkilatlarla əməkdaşlığına, beynəlxalq konfrans, seminar və digər tədbirlərin keçirilməsinə, onun brendinin formalaşdırılmasına və inkişafına köməklik göstərilməsi;

4.8.4. Tədrisdə yeni informasiya və texnologiyaların tətbiqinin təmin edilməsi;

4.8.5. Mərkəzin mühəndis-pedaqoji potensialının inkişafına, kadr hazırlığının keyfiyyətinin yüksəldilməsinə və məzunların işlə təmin olunmasına dəstək göstərilməsi.

4.9. Himayəçilər Şurasının vəzifələri aşağıdakılardır:

4.9.1. Mərkəzin strateji inkişaf proqramını təsdiq etmək və onun icrasına nəzarət etmək;

4.9.2. Mərkəzin illik büdcəsini və onun icrasının nəticələrini təsdiq etmək;

4.9.3. Mərkəzdə təhsilin daxili keyfiyyət təminatının monitorinqinə nəzarət etmək;

4.9.4. Mərkəzin büdcədənkənar mənbələrdən gəlir əldə etmə fəaliyyətlərinə dəstək olmaq və büdcədənkənar mənbələrdən daxil olan vəsaitinin xərclənməsinə nəzarət etmək;

4.9.5. daxili audit bölməsini yaratmaq vəfəaliyyətinə dair hesabatlar almaq;

4.9.6. Mərkəzin brendinin yaradılmasında və inkişafında iştirak etmək;

4.9.7. İşəgötürənlərlə əlaqələr qurmaq, təhsilalanların müəssisə, təşkilat və şirkətlərdə istehsalat təcrübəsi və təlimi keçməsinə, məzunların işə düzəlməsinə və onların karyera inkişafına köməklik göstərmək;

4.9.8. Mərkəzin direktorunun Şura qarşısında Mərkəzin cari fəaliyyətinə dair hesabatlarına baxmaq;

4.10. Himayəçilər Şurası onun üzərinə qoyulmuş vəzifələri yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.10.1. Mərkəzin inkişafına dair həyata keçiriləcək layihə və proqramların müəyyən edilməsinə dəstək göstərmək;

4.10.2. Mərkəzin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi məsələlərinə aid müvafiq orqan və təşkilatlara təkliflər, sorğular və müraciətlər göndərmək;

4.10.3. Şuranın işinə müvafiq sahələr üzrə mütəxəssisləri cəlb etmək;

4.10.4. daxili audit bölməsinin fəaliyyətinə dair hesabatlar və arayışlar almaq;

4.10.5. Şuranın fəaliyyəti ilə bağlı zəruri olan məlumat və sənədləri Mərkəzin rəhbərliyindən almaq.

4.11. Şuranın sədri:

4.11.1. Şuranın işini təşkil edir və ona rəhbərliyi həyata keçirir;

4.11.2. Şuranın növbəti və növbədənkənar iclaslarını çağırır, onların keçirilməsi tarixini və yerini müəyyən edir;

4.11.3. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslara sədrlik edir;

4.11.4. Şura iclaslarının protokollarını və Şuranın fəaliyyəti ilə bağlı digər sənədləri imzalayır;

4.11.5. Şuranı təmsil edir;

4.11.6. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər işləri həyata keçirir.

4.12. Şuranın üzvləri:

4.12.1. Şuranın iclaslarının gündəliyinə daxil edilmiş məsələlərin müzakirəsində və onlar barədə qərarların qəbul edilməsində iştirak edir;

4.12.2. Mərkəzin inkişafı üçün intellektual, informasiya, maddi və maliyyə resurslarının cəlb olunması məsələlərinin həllinə kömək edir;

4.12.3. Şuranın üzvləri Nazirliyə müraciət etməklə onun qərarı ilə Şuranın tərkibindən çıxa bilər.

4.13. Şuranın fəaliyyəti təsdiq olunmuş iş planı əsasında həyata keçirilir.

4.14. Şuranın iclaslarının keçirilmə qaydası aşağıdakı kimidir:

4.14.1. Şuranın iclası üzvlərin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir;

4.14.2. Şuranın növbəti iclasları ildə 2 (iki) dəfədən az olmayaraq, Şura sədrinin müəyyən etdiyi tarixdə keçirilir;

4.14.3. Şuranın növbədənkənar iclasları Agentliyin direktoru, Şura üzvünün və ya Mərkəzin direktorunun təşəbbüsü ilə çağırılır;

4.14.4. Şuranın növbəti və növbədənkənar iclasının çağırılması barədə bildiriş, iclasın gündəliyi və iclasın gündəliyinə daxil edilmiş məsələlərə dair materiallar iclasa azı 10 (on) gün qalmış Şuranın katibi tərəfindən Şura üzvlərinə göndərilir;

4.14.5. Şuranın iclasında Mərkəzin direktorunun iştirakı mütləqdir;

4.14.6. Şuranın gündəliyinə daxil edilmiş məsələlər Şuranın üzvləri tərəfindən müzakirə edilir və hər bir məsələyə ayrıca münasibət bildirilir. Şura üzvü iclasda iştirak etmədikdə, iclasın gündəliyinə daxil edilmiş məsələlərə münasibətini iclasın keçirildiyi tarixədək yazılı formada Şura sədrinə bildirə bilər;

4.14.7. Şuranın iclasında qərarlar açıq səsvermə yolu ilə iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda, Şura sədrinin səsi həlledici sayılır. Səsvermə zamanı Şura üzvlərinin bitərəf qalmasına icazə verilmir.

4.14.8. Şuranın qərarlarının icrası Mərkəz və onun rəhbəri üçün məcburidir;

4.14.9. Şuranın iclasının nəticələri iclas protokolunda əks olunur. İclasın protokolu Şuranın sədri və iclasın katibi tərəfindən imzalanır. İclasın katibi iclasın protokolunun surətini Şura üzvlərinə göndərir;

4.14.10. İclasın katibi vəzifəsini Şuranın katibi həyata keçirir. Şuranın katibi Mərkəzinin əməkdaşları sırasından Şuranın sədrinin razılığı ilə Mərkəzinin direktoru tərəfindən təyin olunur və Şuranın sədrinə hesabat verir;

4.14.11. Şuranın iclasına dövlət və yerli özünüidarəetmə orqanlarının, ictimai təşkilatların, peşə təhsili müəssisələrinin, müəssisə və təşkilatların nümayəndələri, eləcə də fiziki şəxslər dəvət oluna bilər.

4.15. Mərkəzin idarə olunmasında demokratikliyi və şəffaflığı təmin etmək məqsədi ilə təhsil müəssisəsində digər idarə və özünüidarə orqanları (qəyyumlar, valideynlər və s. şuralar) yaradıla bilər.

4.16. Mərkəzin cari fəaliyyətinə Nazirlik ilə razılaşdırmaqla Agentlik tərəfindən vəzifəyə təyin edilən direktor rəhbərlik edir.

4.17. Direktor Mərkəzin mənafeləri üçün vəzifələrini yerinə yetirərkən, vicdanla, peşəkar qaydada və məntiqlə hərəkət etməyə, Mərkəzin maraqlarına sadiq olmağa, onun maraqlarını öz maraqlarından üstün tutmağa, ehtiyatlı olmağa, qərarların qəbulu zamanı ədalətli və qərəzsiz olmağa, habelə adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməyə borcludur. Direktor bu vəzifələrin Mərkəzin maraqlarına uyğun olaraq yerinə yetirilməsi üçün məsuliyyət daşıyır. O, öz vəzifələrini pozduğu halda, pozuntu nəticəsində Mərkəzə dəymiş zərərin əvəzini ödəməlidir.

4.18. Direktorun fəaliyyətinin təşkili qaydası Nazirliyin təsdiq etdiyi əsasnamə və bu Nizamnamə ilə müəyyən edilir.

4.19. Direktor:

4.20.1. Mərkəzin cari fəaliyyətinə rəhbərlik edir və bu fəaliyyət üçün şəxsən məsuliyyət daşıyır;

4.20.2. Mərkəzi dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq qurumlarla və digər hüquqi və fiziki şəxslərlə münasibətlərdə təmsil edir;

4.20.3. Mərkəzin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.20.4. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Nazirliyə və Agentliyə təkliflər verir və sənədlər (o cümlədən, Mərkəzin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim edir;

4.20.5. müəyyən edilmiş struktur daxilində əməyin ödənişi fondunu, işçilərin say həddini və ştat cədvəlini, habelə Agentlik ilə razılaşdırmaqla xərclər smetasını, həmçinin daxili intizam qaydalarını və işçilərin vəzifə təlimatlarını təsdiq edir;

4.20.6. Mərkəzin işçilərinin (direktor müavinləri istisna olmaqla), vəzifəyə təyin və vəzifədən azad edilməsinə (bu Nizamnamənin 6.7-ci bəndi nəzərə alınmaqla), Mərkəzin işçiləri barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsinə dair qərarlar qəbul edir;

4.20.7. Mərkəzin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlıqəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.20.8. Pedaqoji Şuranın qərarlarını təsdiq edir, onun və digər idarəetmə orqanlarının qərarlarını həyata keçirir;

4.20.9. Özünün və Mərkəzin digər vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.20.10. Pedaqoji Şura qarşısında tədris məsələlərinə dair, Şura və Agentlik qarşısında Mərkəzin cari fəaliyyətinə dair hesabatlar verir;

4.20.11. Mərkəzin işçilərinə vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.20.12. Mərkəzin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir, bu Nizamnamənin 3.1.23-cü yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

4.20.13. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Mərkəzin adından əməliyyatlar aparır, müqavilələr (o cümlədən, təsisçinin razılığı ilə peşə təhsili

müəssisəsinin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqd (xüsusi əhəmiyyətli əqd) və aidiyyəti şəxslə dəyəri peşə təhsili müəssisəsinin aktivlərinin 5 faizini və daha çox, həmçinin 5 faizədək hissəsini təşkil edən əqd) bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.20.14. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı komissiyalar və işçi qrupları yaradır;

4.20.15. fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.20.16. kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.20.17. müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir;

4.20.18. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görür;

4.20.19. Mərkəzin cari fəaliyyəti ilə bağlı, digər idarəetmə orqanlarının səlahiyyətlərinə aid edilməyən digər məsələləri həll edir.

4.21. Mərkəzin tədris-istehsalat işləri, tərbiyə işləri və inzibati təsərrüfat işləri üzrə olmaqla 3 direktor müavini vardır. Direktor müavinlərini, Direktorun təqdimatı əsasında və ya birbaşa Agentlik təyin edir. Direktor olmadıqda, Mərkəzin fəaliyyətinə rəhbərliyi Agentlik tərəfindən müəyyən edilən direktor müavini həyata keçirir.

4.22. Mərkəzin nəzdində onun profilinə uyğun istehsalat və xidmət sahələri yaradıla bilər.

4.23. Mərkəzdə mühəndis-pedaqoji və tədrisə köməkçi heyət üzrə vəzifələr nəzərdə tutulur. Bu vəzifələrin tutulması təyinolunma yolu ilə həyata keçirilir və Mərkəzin direktorunun əmri ilə (direktor müavinləri istisna olmaqla) rəsmiləşdirilir.

4.24. Təhsilalanların, təhsilverənlərin və tədrisə köməkçi heyətinin hüquq və vəzifələri Azərbaycan Respublikasının Əmək Məcəlləsi, Azərbaycan Respublikasının "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunları, bu Nizamnamə və daxili intizam qaydaları ilə, eləcə də Mərkəz ilə əmək münasibətləri olan şəxslərə münasibətdə eyni zamanda Azərbaycan Respublikası Əmək Məcəlləsinin tələbləri nəzərə alınmaqla bağlanılan əmək müqavilələri ilə tənzimlənir.

## 5. Mərkəzin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. Mərkəzin nizamnamə fondu 3,557,606.82 (üç milyon beş yüz əlli yeddi min altı yüz altı manat 82 qəpik) manatdır.

5.2. Mərkəzin əmlakı nizamnamə fondundan, təsisçinin ona verdiyi digər əmlakdan, dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, o cümlədən ödənişli təhsildən əldə edilən vəsaitdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan olunmayan digər vəsaitdən formalaşdırılır.

5.3. Mərkəzin balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətləri "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

5.4. Mərkəz ona verilmiş əmlakdan yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Müəssisənin əmlakından təhsildənkənar məqsədlər üçün istifadə qadağandır.

5.5. Bu Nizamnamənin 5.3-cü bəndi nəzərə alınmaqla, Mərkəz əmlakı üzərində sahiblik,

və istifadə hüquqlarını məqsədlərinə uyğun olaraq sərbəst, sərəncam vermək hüququnu isə Agentliklə razılaşdırmaqla həyata keçirir.

5.6. Mərkəz mülkiyyətində və istifadəsində olan əmlakın saxlanılması, qorunması və ondan səmərəli istifadə edilməsi üçün məsuliyyət daşıyır. Mərkəzin əmlakının idarə olunması ilə bağlı fəaliyyətinə nəzarəti Agentlik həyata keçirir.

5.7. Mərkəzin maddi-texniki bazası və təhsil infrastrukturu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"nə uyğun olmalıdır.

5.8. Mərkəz Azərbaycan Respublikasının "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarında nəzərdə tutulmuş mənbələrdən maliyyələşdirilir. Bu mənbələrdən, həmçinin sahibkarlıq fəaliyyətindən əldə olunan vəsait və digər əmlak Mərkəzə büdcədən ayrılan vəsaitin məbləğinə təsir göstərmir.

5.9. MərkəzAzərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi normativlərə uyğun maliyyələşdirilir.

5.10. Mərkəz bilavasitə mənfəət əldə etmək məqsədi daşımır.

5.11. Mərkəz, "Təhsil müəssisəsinin əlavə gəlir əldə etmək məqsədi ilə məşğul olmasına yol verilən sahibkarlıq fəaliyyəti növlərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 19 yanvar tarixli 10 nömrəli Qərarında göstərilmiş sahibkarlıq fəaliyyəti növləri ilə məşğul ola bilər. Bunun üçün Mərkəz Nazirliyin razılığı ilə təsərrüfat cəmiyyətləri yaradır və ya onlarda iştirak edir.

5.12. Mərkəzin bu Nümunəvi Nizamnamənin 5.2-ci bəndində göstərilən mənbələrdən (büdcə vəsaiti istisna olmaqla) daxil olan vəsait hesabına əldə etdiyi əmlak qanunvericiliyə uyğun olaraq onun mülkiyyətinə daxil edilir.

5.13. Mərkəz fəaliyyətindən əldə etdiyi vəsaiti yalnız təhsilin inkişafına, müəssisənin maddi-texniki bazasının inkişafına, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə yönəldilir.

5.14. Mərkəz fəaliyyətindən əldə etdiyi vəsaiti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 257 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən işlər görülməsindən və xidmətlər göstərilməsindən əldə edilən vəsaitdən (o cümlədən tutulan xidmət haqlarından) istifadə Qaydası"na uyğun olaraq xərcləyir.

5.15. Mərkəzdə dövlət hesabına göstərilən xidmətlərin dəyəri Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi maliyyə normativləri ilə müəyyən edilir. Mərkəzin ödənişli təhsil xidmətlərinin və bu Nizamnamənin 5.11-ci bəndində nəzərdə tutulmuş fəaliyyətlə bağlı müvafiq məhsullarının (mallarının, işlərinin, xidmətlərinin) qiymətləri tənzimlənən qiymətlərə aid deyildir.

## 6. Mərkəzin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. Mərkəzin fəaliyyətinə nəzarəti Nazirlik, Agentlik, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada Mərkəzin idarəetmə orqanları həyata keçirirlər.

6.2. Agentlik Mərkəzdə plan üzrə və ya plandankənar monitorinq və araşdırmalar həyata keçirə bilər.

6.3. Mərkəzin fəaliyyətinə dair illik hesabat Agentliyə təqdim edilir.

6.4. Mərkəzin fəaliyyətinə nəzarətin digər formaları Azərbaycan Respublikasının "Təhsil

haqqında", "Publik hüquqi şəxslər haqqında" və "Peşə təhsili haqqında" qanunları ilə müəyyən edilir.

6.5. Mərkəz idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

6.6. Mərkəzin fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün Agentlik kənar auditor təyin edir və onun audit hesabatını qəbul edir.

6.7. Mərkəzdə daxili audit bölməsi yaradıldığı halda, Agentlik həmin bölmənin fəaliyyətinə nəzarət edir və fəaliyyətinə dair hesabatlar alır, habelə onun üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə qərar qəbul edir.

## 7. Mərkəzdə uçot və hesabat

7.1. Mərkəz "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Mərkəz "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

## 8. Mərkəzin yenidən təşkili və ləğv edilməsi

Mərkəzin yenidən təşkilini və ləğv edilməsini, Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla, Nazirlik həyata keçirir.